UOT: 93/99

**Nicabət İslamova**
*AMEA-nın Naxçıvan böməsi, Əlyazmalar fondu, baş laborant*

# CAHANŞAHIN HAKİMİYYƏTİ DÖVRÜNDƏ AĞQOYUNLU VƏ QARAQOYUNLU DÖVLƏTLƏRİ ARASINDAKI MÜNASİBƏTLƏR

**Açar sözlər :** *Qaraqoyunlu, Cahanşah, Teymur*
**Ключевые слова :** *Teymur, Azerbaydjana, Djaxanşax, Karakoyunlı.*
**Key words :***Teymur, Cahanshah, Azerbaijan, Karakoyunlu*

İbn Təğriberdi Qaraqoyunlu padşahı Qara Yusifin oğullarından biri olan Cahanşahın hicri 810 (miladi 1470)-cu ildə doğulduğunu yazır. (10, IV, 7) Qaraqoyunlu dövlətinin ən görkəmli hökmdarlarından biri olan QaraYusif laiqli davamçılarından biri olan Cahanşah hakimiyyətə gəldikdən sonra dövləti möhkəmləndirməyəçalışmışdı. Onun hökmranlıq etdiyi dövrdə Qaraqoyunlu dövlətində coxlu sayda məscidlər, mədrəsələr və xəstəxanalar tikilmişdir.Cahanşahın hakimiyyətdə olduğu dövrü Qaraqoyunlu dövlətinin çiçəklənmə dövrü heseb etmək olar.

Teymurun ölümündən sonra Qara Yusif Anadolunun Şərqindəki və Azərbaycandakı əraziləri geri almaq məqsədi ilə Suriyadan çıxmışdır. Səfər əsnasında Mardin hökmdarı Artuk oğlu Məcd əl-din İsanın yanında qonaq olduğu vaxt Cahanşahın anadan olması xəbəri gəlmişdir. Bu hadisənin hicri 809 (miladi 1405)-cu ildə baş verdiyini nəzərə alsaq Cahanşahın doğum tarixinin hicri 809 (miladi 1405)-cu il olduğunu söyləyə bilərik. Adı əvvəlcə Mardinşah olmuş, sonra isə atası onun adını dəyişərək Cahanşah qoymuşdur.

Qardaşı Qara İskəndərin ölümündən sonra hakimiyyə Cahanşah gəldi. İskəndərin vəfatından sonra dövlətdəpərakəndəlik başladı. Bundan istifadə edən Qaraqoyunlu şahzadələri idarə etdikləri əyalətlərdə qoşun toplayaraq Cahanşaha qarşıçıxırdılar.Bu da dövlətin zəifləməsinə və bir sıra qonşu dövlətlərin də bundan istifadə edərək Qaraqoyunlu torpaqlarına hücum etmələrinə səbəb olurdu. Cahanşah hakimiyyətə gəldikdən sonra bu özbaşınalıüın qarşısını almaq üçün bir sıra tədbirlər görməyə başladı. Bu məqsədlə o, hicri 485 (miladi 852) ci ildə qardaşı oğlu olan Əlvəndi yanına çağırtdırdı. Lakin əmisinin əleyhinə çıxan bu şahzadə onun yanına getməmiş, Mosuldan çıxaraq Fulad qalasına hücum etmiş və onu Pirqulu bəyin əlindən almışdır.(10,VI,354) Qalanı ələ keçirdikdən sonra Ərbil və Şəhrizor tərəflərini ələ keçirdi.(5,80) Onun bu hərəkətlərinə son qoymaq üçün Cahanşah böyük bir qoşun göndərdi. Cahanşahın göndərdiyi qoşunun qarşısında aciz qalan Əlvənd Mirzə onu təqib edən Pirbudaqdan canını qurtarmaq üçün müşaşailərlə birləşdi.(10,IV,354) Qaraqoyunlu hökümdarı tərəfindən həm Əlvəndi, həm də müşaşailəri cəzalandırmaq üçün göndərilən Pirbudaq heç bir nəticə əldə edə bilməyərək geri qayıtdı. Əlvəndin müşaşailər tərəfə keçməsi onların gücünü və iradəsini xeyli artırdı. Lakin çox az vaxt keçdikdən sonra müşaşailərlə yola getməyən Əlvənd onlardan ayrılaraq əvvəl idarə etdiyi torpaqlara geri qayıtmaq istədi. Amma,

onun bu planı baş tutmadı. Cahanşah Rüstəm Tərxanın başçılığı altınqda qoşun göndərərək ona bu planını həyata keçirməyə mane oldu. Qaraqoyunlu qoşununa məğlub olan Əlvənd ağqoyunlu Əlinin oğlu Cahangirin yanına getdi. Cahanşah Cahangirə bir neçə dəfə xəbər göndərərək Əlvəndi geri verməsini tələb etdi. Lakin, onun bu tələbi rədd olundu. Ağqoyunlu şahzadəsinin bu hərəkəti Cahanşahın ağqoyunlulara hücum etməsini qərara almasına gətirib çıxartdı. Gəncə qışlağında olan Cahanşah hicri 854 (miladi 1450) -cü ildə bütün qoşun başçılarına fərmanlar göndərərək tabeliklərində olan qoşunları iləyanına gəlmələrini əmr etdi (2,471). Elə həmin ilin baharında Cahanşah qaraqoyunluların ən məşhur sərkərdələrindən olan Ərəbşah Ayınlı və Oruc Arslan bəyi Ərzincanı zəbt etmək üçün göndərdi. Bu şəhər Qarayuluq Osman bəyin oğlu Mahmud bəyin hakimiyyəti altında idi. Ağqoyunlu şahzadələrindən Musa bəy və digər bəzi bəylər öz ətraflarındakı silahlı qüvvələri ilə birlikdə Cahanşahın tərəfinə keçdilər. Buna səbəb isə Uzun Həsənlə Cahangir arasında olan münaqişə olmuşdur. Çox sayılı Qaraqoyunlu ordusu tərəfindən mühasirə olunan Ərzincan təslim oldu. (2,471) Cahanşah Cahangirə xəbər göndərərək əgər Əlvəndi ona təslim etməzsə bütün ağqoyunlu əsirlərini öldürəcəyini bildirdi. Lakin, Cahangir bu təklifi rədd etdi. Bundan qəzəblənən Qaraqoyunlu hökmdarı Murad çayını keçərək irəliləməyə başlamış, Rüstəm Tərxanı da böyük bir ordu ilə Malatya istiqamətinə göndərmişdir. Rüstəm Tərxan Malatyaya gəldiyi vaxt burada olan Ağqoyunlu ulusuna mənsub boyların bəylərindən olan Məhəmməd Bəkdaşlı, Məhəmməd Xoca Hacılı, Əli bəy Pürnanlı Qaraqoyunlular tərəfə keçdilər. Urfa əmiri həmçinin Cahangirin qardaşı olan Üveys bəy şəhəri qoyub qaçdığı üçün şəhər asanlıqla Qaraqoyunlulara təslim oldu.(2,471) Rüstəm Tərxan payızda Mardini mühasirəyə aldı. Lakin bu vaxt Cahangirin şəhəri xilas etməyə gəldiyini eşidərək onun qarşısını almağa getdi. İki qoşun arasında baş vermiş döyüşdə Qaraqoyunlular qalib gəldilər. (3,155) Bu qələbədən sonra Rüstəm Tərxan yenidən Mardinə gələrək şəhəri mühasirəyə aldı.Qaraqoyunlu sərkərdəsinin şiddətli hücumları nəticəsində Mardin təslim oldusa da Ağqoyunlular qalaya çəkilərək mübarizələrini davam etdirirdilər. (3,155)

Misir Sultanı Çaxmaq Cahanşahın bu hərəkətini eşitdiyi vaxt hadisənin əsl səbəblərini aydınlaşdırmaq üçün hicri 854 (miladi1450)-cü ilin avqustunda Əli əl-Zərdakaş əl-Bundukdarı onun yanına göndərdi. Cahanşah Sultan Çaxmağın elçisinə özünün misirlilərə qarşı heç bir pis niyyəti olmadığını, məqsədinin sadəcə Cahangirə dərs vermək olduğunu bildirmişdir. Bir müddət sonra Cahangirin Cahanşahın qarşısından qaçaraq Suriyaya gəldiyi xəbəri Misir sultanına çatdırıldı (9,VII, 542). Çaxmaq bu xəbəri eşitdikdən sonra Ərbistan əmiri Dulqədirli hökümdarı olan Süleyman bəyə Cahangirin qarşısını kəsərək onu Suriyaya buraxmamağı əmr etdi. Lakin, elə həmin vaxt Cahanşahın Diyarbəkir bölgəsinə gəlməsi xəbəri Cahangiri çaşbaş salmış və o da kömək istəmək, yaxud da heç olmasa aralarında sülhün yranmasına kömək etməsini xahiş etmək üçün anası Sara Xatunu Misir sultanının yanına göndərdi. Hicri 855 ( miladi 1451)-ci ildə Qahirəyə gələn Sara Xatun sultanla görüşmüşdür. Bundan çox az bir müddət sonra Cahangir yaşca çox kiçik olan oğlunu Sultan Çaxmağa yazdığı məktubla birlikdə Məmluk sarayına göndərdi. (1,420-421) Elə həmin ilin mart ayında da Cahanşahın elçiləri Qahirəyə gələrək Qaraqoyunlu hökmdarının məktubunu Misir sultanına təqdim etdilər. Bu məktubda Cahanşah

Məmluk hökümdarına öz hörmət və ehtiramını bildirərək Ərzincan və Mardin şəhərlərini tutduğunu və Diyarbəkir bölgəsinə gəldiyini yazırdı. Bundan başqa o qeyd edirdi ki, bu yürüşlərin əsas səbəbi Misir sultanına pis münasibət bəsləyən, həmçinin ölkəsini pis idarə edən Cahangirə dərs vermək və onu taxtdan salaraq yerinə Sultan Çaxmağa yaxşı münasibət bəsləyən Şeyx Həsən bəyi çıxartmaq olmuşdur. Qaraqoyunlu elçiləri bundan başqa Cahanşahın 10 yaşlı oğlu İspəndi də özləri ilə gətirərək hökmdarlarının bu şahzadənin Misir sultanının nəzarəti altında böyüməsini istədiyini bildirdi. Cahanşahın elçiləri martın 27-də Sultan Çaxmağın da elçisi ilə birlikdə Qahirəni tərk etdilər. (1,421)

Qaraqoyunlu hökmdarının göndərdiyi elçilər Qahirədə danışıqlar apardığı vaxt Uveys bəy Urfaya gəlmiş və Qaraqoyunluları buradan çıxartmışdır. (8,VI, 334) Mardin qalasını mühasirə edən Rüstəm Tərxan, Şeyx Həsən bəy və digər iki Qaraqoyunlu cəngavərlərinin silahlı qüvvələrini gücləndirərək Urfanı mühasirəyə aldı. Bu mühasirənin başlandığı vaxtda Germikdə olan, sonra isə Ərganiyə gələrək burada ordusunu gücləndirən Uzun Həsən Urfaya gəldi. Bundan sonra Qaraqoyunluları məğlubiyyətə uğradaraq Şeyx Həsən bəyi və onun oğlanlarını bir çox qaraqoyunlu bəyləri ilə birlikdə əsir alaraq, əmisi Şeyx Həsən bəyi və onun oğlanlarını öldürtdü. Uzun Həsənin bu qələbəsi və Şeyx Həsənin ölümü xəbəri Qahirəyə həmin ilin aprel ayında çatdı. (10,VI, 335)

Ağqoyunluların bu qələbəsini eşidən Rüstəm Tərxan Mardinin mühasirəsini əskərlərindən bir qisminə tapşıraraq Uzun Həsəni təqib etməyə başladı. Lakin, onun bu təqibi heç bir müsbət nəticə vermədi. Bu işin uzandığını görən Cahanşah məsələyə son qoymaq üçün oğlu Məhəmmədi Mirzəni böyük bir qoşunla Rüstəm Tərxana köməyə göndərdi. Rüstəm Tərxanla Məhəmmədi Mirzənin birləşmiş qoşunlarına müqavimət göstərə bilməyəcəyini başa düşən Cahangir Amid şəhərinə gedərək mübarizəsini burada davam etdirməyə başladı. (3,157)

Bu hadisələrin baş verdiyi vaxt Cahanşah Mardin qalasının mühasirəsini davam etdirirdi.

Amid çox güclü müdafiə olunurdu. Rüstəm Tərxan və digər qaraqoyunlu bəylərinin şiddətli hücumları heç bir nəticə vermədi. Mühasirənin davam etdiyi vaxt Uzun Həsən şəhəri mühasirə edən Qaraqoyunlu qoşununa hücum etdi. Lakinağqoyunlu şahzadəsinin bu hücumu müsbət nəticələnmədi. Digər tərəfdən də ağqoyunlularla yaxşı münasibətdə olan Dulqədir oğlu Süleyman bəy də onlara həmişə kömək edirdi. Cahanşah düşmənlərini bu kömәkdən məhrum etmək üçün Xarput ətrafına gələrək ordusunun bir qismini Malatyaya doğru göndərdi. Hicri 855 (miladi 1451)-ci ildə Cahanşahın dulqədirlilərə hücum edəcəyi xəbəri Qahirəyə gəldi. Sultan Çaxmaq öz himayəsi altında olan dulqədirlilərə kömək etmək məqsədi ilə bütün naiblərinə xəbər göndərdi. Bunu eşidən Cahanşah Dulqədirli torpaqlarına hücumlarını dayandıraraq yalnız Ağqoyunlularla mübarizə aparmağa başladı (10, VI, 357)

Hicri 856 (miladi 1452)-ci ildə Cahanşah Baysunqurun oğlu sultan Baburun Reyə gəlməsi xəbərini eşitdi. Bu şahzadə qardaşı Məhəmməd Sultanı öldürərək Xorasanla yanaşı İraqi-Əcəm və Fars bölgələrini də öz hakimiyyəti altına salaraq ordusunun gücünü xeyli artıra bilmişdi. Bu xəbəri eşidən Cahanşah ağqoyunlularla barışığa gəlməyi qərara aldı. Bu məqsədlə də Cahangirin yanına elçi göndərərək öz

tabeçiliyini tanımağı ona təklif etdi. Cahangir də bu təklifi çox böyük məmnuniyyətlə qəbul etdi. Cahanşah bu sülhün daha da etibarlı olması üçün Cahangirə xəbər göndərərək Ağqoyunlu bəyinin qızını oğlu Məhəmmədi Mirzəyə istədi. Cahangir Cahanşahın bu təklifini də razılıqla qarşıladı. (3,177) Beləliklə də Ağqoyunlu və Qaraqoyunlu dövlətləri arasında uzun zamandan bəri davam edən silahlı qarşıdurma dayandırıldı.

Lakin bu hadisədən bir neçə il sonra hicri 861 (miladi 1457)-ci ildə Cahangir qızının qaynatasının yanına elçi göndərərək qardaşı Uzun Həsənin hakimiyyəti altında olan torpaqları onun əlindən almaq üçün kömək etməsini xahişetdi (3,178).

Elə həmin ilin baharında Cahanşah ən cəsur sərkərdələrinin komandanlığı altında 20.000 nəfərdən artıq şəxsi heyəti olan qoşun göndərdi. Uzun Həsən isə öz qoşununu möhkəmləndirmək üçün Şeyx Cüneydin müridləri olan türkmanları də ordusuna daxil etdi. Cahanşah hicri 864 (miladi 1459)-cü ildə Cüneyd Səfəvinin Ərdəbildən çıxarılmasını əmr etmişdir. Buna səbəb də Şeyx Cüneydin şiyəliyi yaymasi idi (7,70). Cüneyd Ərdəbildən qovulduqdan sonra Uzun Həsən məktub göndərərək ona öz etiramını və məhəbbətini bildirdi(4,71; 11,408). Nəhayət, Mardin ətrafında iki qardaşın qoşunu qarşı-qarşıya gəldilər. Bu döyüşdə Cahangir məğlub oldu. Cahanşahın əsgərlərindən bir çoxu və həmçinin bəzi sayseçmə bəylərlə Uzun Həsənə əsir düşdü. Uzun Həsən bu bəylərin içərisindən amansız düşməni olan Rüstəm Tərxanı öldürmüş, digərlərini də həbs etdirmişdir. Bir ildən sonra Uzun Həsən Cahanşahla barışaraq əsirləri geri göndərdi. Uzun Həsən bu döyüşdən sonra Fateh Sultan Mehmedə məktub göndərərək qələbəsini ona bildirdi.

Bir-birilərinə daim düşmən münasibət bəsləmələri nəticəsndə bu iki türkman dövlətinin başınada nə qədər igid və bacarıqlı hökümüdarların durmasına və çox böyük ərazilərə sahib olmalarına baxmayaraq qurduqları dövlətləri uzunömürlü edə bilməmişdilər.

## Ədəbiyyat:


1. Ali K. Erzincan tarihi. – İstanbul, 1932. - 260 s.
2. Doğuşdan günümüze Büyük İslam Tarihi. – İstanbul : Cağ yayınları, 1993.C.8. - 634 s.
3. Əbubəkr Tehrani. Kitabi - Diyarbəkiriyyə /tərc.ed. : R Şükürova). – Bakı : Elm, 1998. - 333 s.
4. Əskər B. Türkmanlar // Azərbaycan jurnalı. – Bakı, 2003. - № 10 . -S.236 .
5. Hamer J. V. Devleti Osmaniye tarihi. / trkce tercüme: Mehmet Ata. – İstanbul, 1329. C.4. - 352 s.
6. Xaviz A. (Şixab ad-Din Abdallax ibn Lutfallax al-Xavafi). Zayl-i Djalil At-Tavarix-i Raşidi: Talışxanov G. R. – Baku. 2007. - 322 s.
7. Инвентарный каталог мусульманских монет Императорского Эрмитажа. Т.3. –Спб.,1896-1904. - 1082 с.
8. Петрушевский, И. П. Внутренняя политика Ахмеда Ак-Койюнлу // Изв. АзФАН. – 1942. - № 2.

ابو محاسن جمال الدين يوسف ابن تغربردى العتاباي اليشبظاوى الظاه.

ر.
"النجوم الظاهر ملوك مصر و القاهرة". بركلى ۱۹۳۶، جلد ٤ -۲۷۸ص، جلد٥- ۳۸۹ص، جلد٦- ۳۸۳ ص ، جلد۷- ۳۹۲ص.
ابو محاسن جمال الدين يوسف ابن تغربردى العتاباي اليشبظاوى الظاهر. "حوادت ظهوار في مد الأيام و الشهور". بركلى ۱۹۳۳، جلد١٤، ٦٧٨ص.
حسن بك روملى. "احسن التواريخ"، ۲۳۰ ص. B-3051/21265

***Ниджабат Исламова***

## ПОЛИТЧЕСКИЕ СВЯЗИ МЕЖДУ ГОСУДАРСТВАМИ АГ-ГОЮНЛУ И КАРА-КОЮНЛУ В ПЕРИОД ПРАВЛЕНИЯ ДЖАХАНШАХА

**Резюме**

В конце 14 века нестиабильность на территории Азербайджана послужила причиной успешного вторжения Теймура и Тохтаниша в азербайджанские земли, которые использовали эту возможность с большим умением. В результате этого азербайджанские земли оказались под оккупацией захватчиков. Восточные источники богаты интересной и ценной информацией о вторжении в азербайджанские земли и борьбе местного населения с захватчиками. В этой статье содержится много информации обо всех этих фактах.

***Nijabat Islamova***

## İINTERNATİONAL RELATİONS BETWEEN COUNTRİES AKHKOYUNLU AND KARAKOYUNLU DURİNG THE REİGN OF THE JAKHANSHAH

**Summary**

At the end of XIV century disstability on the territory of Azerbaijan caused successful conditions for foreign invasion Teymur and Tokhtanish also seized this apportunity whit great skill. In the result Azerbaijani lands had been under occupation of either this or that invader.

Oriental sources are rich in interesting and valuable information about invasion of Azerbaijani lands and struggle of local population against invaders.This article gives a lot of information about all this facts.